1_Layout 1 13.02.2024 18:39 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 3 (667)

15 fevral 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# QALİB XALQ, GÜCLÜ LİDER

## Bu birlik Azərbaycanı daha işıqlı gələcəyə aparır

**“Azərbaycan” qəzetinin müxbiri İradə Əliyevanın müəllifi olduğu “Qalib xalq, güclü Lider” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Əsl liderlərin hər zaman güclü strateji hədəfləri olur. Böyük məqsədlər əldə edildikdən sonra dərhal qarşıya yeni vəzifələr qoyulur, bütün səylər həmin amallara doğru səfərbər edilir. Çünki dəyişiklik, inkişaf daim davam edən prosesdir və liderlər bunu hər kəsdən yaxşı duyaraq inkişaf proseslərinin ardıcıllığını, davamlılığını, dayanıqlılığını təmin etmiş olurlar.

Güclü lider həm də insanların dövlətçilik arzularını milli amala çevirir. Xalqı bu amal, ümumi ideya ətrafında birləşdirir və düzgün hədəflərə çatdırır. 7 fevral prezident seçkilərində də ölkə vətəndaşları Azərbaycanı tarixinin ən güclü dövrünə yetişdirən, son 20 ildə görülən işləri, əməli addımları bu günün və gələcəyin reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirən, hazırkı milli inkişafın əsaslarını təşkil edən qüdrətli Liderinə - cənab İlham Əliyevə səs verdi. Bu, xalqın ümummilli etimadı, ölkə vətəndaşlarının birmənalı ictimai rəyi idi. Prezident seçkisi xalq-hakimiyyət birliyinin, cəmiyyətimizdə getdikcə inkişaf edən siyasi mədəniyyətin, qədirbilən xalqımızın malik olduğu ali keyfiyyətlərin təntənəsi oldu.

İndiyə qədər də ölkəmizdə seçkilər, ümumxalq referendumları kifayət qədər fəallıq şəraitində keçib. Amma etiraf edək ki, seçki məntəqələrindəki budəfəki qələbəlik heç zaman müşahidə olunmamışdı. Bunu hətta hakimiyyətin qatı opponentləri də etiraf etməkdədirlər. Prezident seçkisi tam şəffaf, demokratik mühitdə, rəqabətli şəraitdə, beynəlxalq müşahidəçilərin iştirakı ilə həyata keçdi. İddiasını ortaya qoyan hər kəsə seçki marafonunda iştirak edib öz alternativ mövqeyini seçicilərə çatdırmaq, şansını sınamaq imkanı yaradıldı. Seçicilər fəal şəkildə məntəqələrə gələrək öz səslərini ən layiqli namizədə etibar etdilər. Azərbaycanda bütün parametrlər üzrə nümunəvi bir seçkinin keçirildiyi bir çox beynəlxalq müşahidəçinin rəylərində də əksini tapdı. Belə məqamlardan ayrı-ayrı ölkələrə qarşı çirkin niyyətlərlə təzyiq məqsədilə istifadəyə öyrəşmiş bəzi beynəlxalq qurumlardan fərqli olaraq əsl niyyəti həqiqətən seçki prosesinə nəzarətdən ibarət olan əksər beynəlxalq təşkilatın müşahidəçiləri səsvermə prosesi ilə bağlı obyektiv mövqelərini, fikirlərini ortaya qoydular.



### Ümumxalq minnətdarlığının ifadəsi

Belə bir yüksək fəallıq bizi son əsrlərin ən böyük problemindən birdəfəlik xilas edən, dövlətimizin ərazi bütövlüyünə, suverenliyinə nail olan, gələcək nəsillər üçün qansız-qadasız, inkişaf mənzərəli gözəl bir gələcəyin təməlini qoyan Liderə - cənab İlham Əliyevə xalqın minnətdarlığının ifadəsi idi. Bu, tarixinin ən qüdrətli çağlarına gəlib çıxmış Azərbaycan dövlətinə, uzun illərdən bəri apardığımız haqq savaşındakı möhtəşəm zəfərimizə, keçmişin dəyərlərinə, bu günün nailiyyətlərinə, gələcəyin ümidlərinə verilən səs idi. 7 fevral prezident seçkisi ilə Azərbaycan xalqı milli vəhdətinin gücünü bir daha bütün dünyaya nümayiş etdirdi.

Bu seçki bir daha sübuta yetirdi ki, Azərbaycan xalqı dünyanın ən müdrik, uzaqgörən, mövcud reallıqları aydın qiymətləndirən, tarixin qazandırdığı təcrübələrdən dərs çıxarmağı bacaran, malik olduğu nailiyyətləri qoruyub daha da genişləndirən xalqlarındandır və belə bir toplumu addım-addım irəlilədiyi inkişaf yolundan kənarlaşdırmaq əsla mümkün deyil. 7 fevral seçkisinin nəticələri onu da bir daha sübuta yetirdi ki, hər addımında, hər qərarında xalqa arxalanan, vətəndaşların dəstəyindən güc alan Lider nə qədər böyük qüdrət sahibidir.

Hər addımında xalqın dəstəyini, inam və güvənini hiss edən Lider insanları önümüzdəki bütün ali hədəflərə çatdıracaq. Necə ki, bir zamanlar xəyalımızdan belə keçirə bilmədiklərimizi gerçəkləşdirdi. Şuşada, Xankəndidə Dövlət Bayrağımızı ucaltdı. Bizi yurdlarımıza qovuşdurdu. Milli qürurumuzu bərpa etdi. İşğal dövründə ermənilərin vandalcasına dağıtdıqları el-obamızı qurucu əlləri ilə yenidən gülüstana çevirməyə başladı.

### İnamın gücü

Müstəqilliyimizin ilk illərindəki təlatümlü zamanlarda Ümummilli Lider Heydər Əliyevi təkidlə hakimiyyət rəhbərliyinə çağıraraq dəstəyi, inamı, ümidləri ilə hər zaman bu böyük dövlət adamının yanında olan Azərbaycan xalqı bununla dövlətimizin çətin sınaqlardan çıxmasına, hüquqi dövlət quruculuğu yollarında tədricən irəliləməsinə, beynəlxalq aləmdə özünə layiqli yer tutmasına, müstəqil dövlət kimi mövcudluğunun ilkin zəruri əsaslarını formalaşdırmasına, sosial-iqtisadi çətinlikləri yavaş-yavaş geridə qoymasına şərait yaratmışdı. Ümummilli Liderin bütün bunlara nə qədər böyük fədakarlıq, əzm, siyasi iradə ilə nail olduğunu görən, Azərbaycanın əldə etdiyi nailiyyətlərin təsirini özünün gündəlik həyatında hiss edən xalqımız fərqində idi ki, ölkəmizin, dövlətimizin gələcəyi bu siyasətin ardıcıllığından asılıdır. Onda ən böyük dərdimiz Qarabağ problemi, Azərbaycan torpaqlarının işğalı acısı idi. Bu müşkülün həlli o qədər də asan görünmürdü. Amma Azərbaycan vətəndaşları ümidli idilər ki, Ulu Öndərin təməlini qoyduğu inkişaf prosesləri bu minvalla davam etsə, bəlkə nə vaxtsa torpaqlarımızın azad edildiyi günləri də görə bilərik.

Bu siyasətin növbəti onillərdə də davam etməsi üçün Azərbaycan xalqı 2003-cü ilin prezident seçkisində Ümummilli Liderin inandığı şəxsə - cənab İlham Əliyevə səs verdi. Müstəqil dövlətimizin strateji inkişaf kursunun davam etdirilməsi, Azərbaycana qarşı yönələn təhdidlərin aradan qaldırılması üçün verdiyi hər qərarda xalq öz Liderinin yanında oldu. Ona dəstəyini əsirgəmədi. İnamı ilə güc verdi.

### Əsrlərə bərabər 20 il

Dövlətimizin başçısı ötən 20 il ərzində əsrlərin hüduduna sığmayacaq qədər böyük uğurlara nail oldu. “Tarixin ən güclü Azərbaycanı” ifadəsi hazırda təkcə qürur doğuran kəlmələr deyil, əhatə olunduğumuz reallığın aynasıdır. Prezident İlham Əliyev Azərbaycanı regionda söz sahibinə, beynəlxalq proseslərin nüfuzlu iştirakçısına, qlobal məsələlərə güclü təsir imkanlarına malik olan ölkəyə çevirdi. Ölkəmizin təşəbbüskarı və fəal icraçısı olduğu irimiqyaslı layihələrlə böyük bir coğrafiyanın enerji-kommunikasiya mənzərəsini yenidən müəyyənləşdirdi. Dövlətimizin mövqelərini gücləndirdi. Sosial-iqtisadi inkişaf proqramları ilə Azərbaycanın gerçək müstəqilliyinə nail oldu. Vətənimizin kiminsə asılılığında qalmasına imkan vermədi.

Cənab İlham Əliyev Azərbaycanı başdan-başa abadlıq məkanına çevirdi. Azərbaycan insanının rifahı yüksəldi.

### Güclü Azərbaycan

Prezident İlham Əliyev Azərbaycanın getdikcə genişlənən sosial-iqtisadi imkanları ilə güclü bir ordu qurdu. Təchizatına, döyüş qüdrətinə görə onu dünyanın ən öncül orduları sırasında qərarlaşdırdı. Yeni nəsillər üçün qüdrətli bir Azərbaycan yaratdı və gözünü açandan öz dövlətini, dövlətinin liderini belə vüqarlı, mətin görən gənclərimizin timsalında ölkəmizin bu günü və gələcəyi üçün güclü bir nəsil yetişdirdi. Bu nəslin təmsilçiləri Ali Baş Komandanın rəhbərliyi ilə misilsiz igidliklər, fədakarlıqlar göstərərək torpaqlarımızı işğaldan azad etdilər. Ölkəmizin ərazi bütövlüyünə nail oldular.

Azərbaycanın inkişafı, qüdrətlənməsi mühitində yetişən vətənpərvər gənclik bu gün Vətənimizin gələcəyi üçün böyük bir potensial qüvvədir. Bütün bunlar həyata keçirilən inkişaf proseslərinin, milli amallara doğru ardıcıl yolumuzun, ölkəmizin qüdrətlənməsinin gələcəkdə də davam edəcəyinə təminat yaradır.

Azərbaycan xalqı 7 fevral prezident seçkisində yekdil şəkildə cənab İlham Əliyevə səs verməklə həm qüdrətli Liderin son iki onillikdə dövlətimizə, fərd olaraq hər bir vətəndaşımıza qazandırdığı uğurlara görə təşəkkür duyğularını ifadə etdi, eyni zamanda məqsədyönlü inkişaf siyasətinin növbəti illərdə də davam etdirilməsi arzusunu diqqətə çatdırdı.

### Yeni dövr, yeni hədəflər

Yeni dövrün strateji məqsədləri aydındır. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın təmin olunmasını, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğunu, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı olmağı, işğaldan azad edilmiş ərazilərə böyük qayıdışı, təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi olmağı dövlətimiz yaxın illər üzrə əsas milli prioritetləri kimi müəyyənləşdirib.

Hazırda genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilən Qarabağın, Şərqi Zəngəzurun ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər bu yeni strateji dövrdə də Azərbaycanı gücləndirməkdə davam edəcək. Ölkəmizin iqtisadi suverenliyi daha da möhkəmlənəcək, Azərbaycan müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə çevriləcək. Məcburi köçkünlərimizin doğma yurdlara qayıdışı təmin olunacaq.

Xalqımız tam demokratik, şəffaf şəraitdə keçən 7 fevral prezident seçkisində artıq görünməkdə olan bu gələcəyə səs verdi. Prezident-xalq birliyinin gücü ilə bu gələcək haqqında çox tezliklə reallıq kimi söhbət açacağıq.

# XX ƏSRİN DƏHŞƏTLİ FACİƏSİ - XOCALI SOYQIRIMI

Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırım cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl – 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Xankəndidən 10 kilometr cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında strateji məntəqədə yerləşən, Qarabağın yeganə hava limanının yerləşdiyi Xocalı fevralın ikinci yarısından başlayaraq, Ermənistan hərbi birləşmələri tərəfindən tam mühasirəyə götürülüb.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq, mühasirədəki Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridib, onlara misli görünməmiş qəddarlıqla divan tutub, şəhər barbarcasına yerlə yeksan edilib. Yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli nəticəsində 613 nəfər dinc azərbaycanlı milli mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirilib, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olub. Nəticədə 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Bundan başqa, 487 dinc sakin ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi naməlumdur.



Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Srebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

Bəşəri cinayət olan Xocalı soyqırımının təşkilatçıları Ermənistan Respublikasının siyasi və dövlət rəhbərliyi, birbaşa icraçıları isə Ermənistan silahlı qüvvələrinin bölmələri, Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətidir.

Milli Məclisin 1994-cü il 24 fevral tarixli qərarına əsasən, 26 fevral Xocalı Soyqırımı Günü elan edilib.

Ümummilli Lider Heydər Əliyev Xocalı soyqırımı haqqında deyib: “Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırım və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırım aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir”.

Bununla əlaqədar Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xocalıya ədalət!” kampaniyası çərçivəsində görülən işlər ildən-ilə daha da genişlənir. Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, bəzi beynəlxalq təşkilatların və bir sıra ölkələrin parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırım aktı olduğu təsdiq edilib.

2023-cü ilin sentyabr ayının 19-dan 20-dək Qarabağ bölgəsində Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı şəhərinin işğalına son qoyulub. Bu gün Xocalıda üçrəngli bayrağımız dalğalanır, soyqırım qurbanı olan xocalıların ruhları şaddırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə hər il Xocalı soyqırımı genişmiqyaslı tədbirlərlə yad edilir.

**president.az saytının materialları əsasında hazırlanıb**

2_Layout 1 13.02.2024 18:27 Page 1



# XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB



Fevralın 10-da Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.



Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Bəhruz Kazımov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə həmçinin xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN RƏQƏMSAL POLİS PLATFORMASI İSTİFADƏYƏ VERİLİB



Daxili İşlər Nazirliyi polis-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılması və vətəndaş yönümlü xidmətlərin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən innovativ texnoloji həllərin davamı olaraq göstərdiyi elektron xidmətləri daha da əlçatan etdi.

Artıq vətəndaşlar polis idarəsinə getmədən Daxili İşlər Nazirliyinin səlahiyyətində olan bir çox xidmətdən onlayn qaydada yararlana biləcəklər. Bunun üçün E-Polis tətbiqində və ya e-xidmet.mia.gov.az portalında identifikasiya nömrəsi və ya asan login ilə qeydiyyatdan keçmək kifayətdir.

Tətbiqdə bir çox bölmə mövcuddur. Bölmələrə keçid edərək Daxili İşlər Nazirliyinin səlahiyyətində olan məsələlərlə bağlı informativ məlumatlar əldə edə, sənədlərinizi nəzərdən keçirə və cərimələrinizi onlayn qaydada ödəyə bilərsiniz.

"Yeni müraciətlər" bölməsində vətəndaşlar heç bir yerə getmədən onlayn qaydada elektron imza ilə təsdiqlənmiş məhkumluq haqqında, nəqliyyat vasitəsinin zədələnməsi, nəqliyyat vasitəsinin yüklülük və yol-nəqliyyat hadisəsi ilə bağlı sığorta arayışlarını əldə edə, eləcə də olduğu yer üzrə müvəqqəti qeydiyyata alınmaq üçün müraciət edə bilərlər.

"Virtual 102" bölməsində vətəndaşların qarşılaşdığı məsələlərlə bağlı operativ olaraq görüntü, səs qeydi və yazılı formada müraciət etmək imkanları vardır.

Tətbiqdə həmçinin fəaliyyət istiqamətləri üzrə, eləcə də xidmətə qəbulla bağlı müraciətlər alınır və cavablandırılır.

E-Polis tətbiqini App Store və ya Google play-dən yükləyə bilərsiniz.

**DİN-in Mətbuat xidməti**

# XİDMƏTİN TƏŞKİLİ ZAMANI HƏRBİ NİZAMNAMƏLƏRİN TƏLƏBLƏRİNƏ CİDDİ ƏMƏL EDİLİR

67987 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri komendant bölüyüdür. Bölüyün başlıca vəzifəsi hərbi hissənin döyüş bayrağının, anbarların, avtomobil və zirehli texnikanın saxlanıldığı parkın etibarlı mühafizəsi və müdafiəsini təşkil etməkdir.



Bölük komandiri kapitan Zeynal Cəfərov bu istiqamətdə üzərinə düşən vəzifələri məsuliyyətlə icra edir.

Xidmətin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edildiyini bildirən kapitan Z.Cəfərov söylədi ki, xidmətə cəlb ediləndən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara müvafiq nizamnamənin maddələri çatdırılır. Ümumiyyətlə, xidmətə cəlb olunan hərbi qulluqçularla bir gün öncə fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu kapitan Vasif Hüseynov xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbətlər aparır.

Hərbi şəhərciyin müdafiə və mühafizəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Onların sağlamlığı və mənəvi-psixoloji durumlarının sabit olmasını əsas şərt kimi dəyərləndirən kapitan Z.Cəfərov digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi.




Postlarda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, həmçinin asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliə olunması, stolüstü oyunların oynanılması diqqət mərkəzində saxlanılır.

Bölük komandiri vəzifələrinin icrasında fərqlənən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından çavuş Orxan Osmanlı, baş əsgər Rəmzi Sadıqov, əsgərlər Hakim Tahirov və Seymur Rüstəmovun adlarını qeyd etdi.



**kapitan Xədicə Hacızadə**

# XÜSUSİ TƏYİNATLILAR ŞƏRTİ DÜŞMƏN HƏDƏFLƏRİNİ MƏHV EDİBLƏR

12565 saylı hərbi hissənin əsas tədbirlərin və döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planına uyğun olaraq, döyüş atışlı məşğələyə cəlb edilən xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları snayper tüfənglərindən, tapança və qumbaraatanlardan praktiki atışlar yerinə yetiriblər. Çətin hava və relyef şəraitində snayperlərin maskalanma tədbirlərinə əməl etdikləri məşğələyə zirehli texnikalar da cəlb edilib. Havanın əlverişsiz olmasına baxmayaraq, hərbi hissənin xüsusi təyinatlıları yüksək peşəkarlıq nümayiş etdiriblər. Şərti düşmən hədəflərinin məhv edilməsi təmin olunub. Praktiki atışlar zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunub.





**12565 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ HİSSƏNİN QABAQCIL BÖLMƏSİ

16075 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsi yüksək döyüş hazırlığı, nümunəvi xidməti, həmçinin keçən ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə fərqlənən qabaqcıl bölməsidir.



Dəstə komandiri kapitan Araz Sadıqov dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkar olmağın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O, xidmətini Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil etdiyini nəzərimizə çatdıraraq, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli və tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi.



Tabeliyində olan hərbi qulluqçuların qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsinə hər zaman hazır olmalarına məsuliyyət daşıdığını diqqətə çatdıran komandir, söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən zabitlərin adlarını çəkməyi unutmadı. Ələlxüsus, kapitan Seymur Göyüşovun komandiri olduğu post-patrul xidməti bölməsinin ötən il ərzindəki uğurlu xidmətini qeyd etdi. Bölmə komandiri kapitan S.Göyüşov hərbi qulluqçuların fərdi qaydada peşəkarlığının artırılması istiqamətində mütəmadi işlər apardığını vurğuladı.

Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və dostluq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də yeni gəlmiş hərbi qulluqçuların kollektivə uyğunlaşması da önəm verilən əsas məsələlərdən biridir. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Əli Ağayevin fəaliyyəti müsbət xarakterizə edilir. Hərbi qulluqçuların fərdi, mənəvi keyfiyyətlərinin dərindən öyrənilməsinin vacibliyini vurğulayan zabit öz işinin öhdəsindən layiqincə gəlir. O, fərdi keyfiyyətlərin müəyyən edilməsində həssas məqamların olduğunu dedi: "Hər bir insanı fərdi qaydada tanımaqla onun xidmətə münasibətini, eləcə də hazırlığını müəyyənləşdirmək mümkündür. Tələbkarlıqla yanaşı, hərbi qulluqçulara diqqət və qayğının artırılması gözlədiyimiz nəticənin əldə olunmasına təkan verir. Ümumilikdə götürsək, dəstədə xidmət edən bütün komandir heyətinin öz işini düzgün istiqamətdə qurması əldə olunmuş müsbət nəticə kimi qiymətləndirilməlidir".

Zabitlərin fikirlərindən də aydın görünür ki, bu gün hərbi hissənin öncülləri sırasında olan xüsusi vasitələrin tətbiqi dəstəsi bu adı hər zaman qoruyub saxlamaq əzmindədir.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 14.02.2024 10:55 Page 1



*Şəhidlərimiz*

# VƏTƏN UĞRUNDA CANINI FƏDA ETMİŞ CƏSUR ZABİTİMİZ

2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Respublikasının Qarabağ iqtisadi zonasında Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həyata keçirdikləri lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan ordusunun tör-töküntülərinə və silahlanmış separatçılara ağır zərbələr vurulub. Uğurla həyata keçirilən bu tədbirlər nəticəsində bölgədə erməni separatizminə son qoyulub. Antiterror tədbirlərində igidlik göstərən Daxili Qoşunların şəxsi heyətindən 12 nəfər şəhid olub, 24 nəfər isə yaralanıb və xəsarət alıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev 2023-cü il sentyabrın 20-də xalqa müraciətində lokal xarakterli antiterror tədbirlərinin tarixi əhəmiyyətini vurğulayaraq, cəsur hərbi qulluqçularımızın göstərdikləri qəhrəmanlıq nümunələrini yüksək qiymətləndirib: "Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır".

Antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış cəsur silahdaşlarımızdan biri də polkovnik-leytenant Hüseynov Rəşad Rəhim oğludur.

Polkovnik-leytenant Rəşad Hüseynov 1980-ci il martın 10-da Əli-Bayramlı (indiki Şirvan) şəhərində anadan olub. Rəhim Hüseynovun və Ceyran Hüseynovanın boya-başa çatdırdıqları və tərbiyə etdikləri 3 övladından (Rəşad, Anar və Rasim) biri, eyni zamanda ailənin ilki idi.

Rəşad 1986-1995-ci illərdə Şirvan şəhərindəki 21 saylı tam orta məktəbdə səkkizinci sinfədək təhsil alıb. Hələ uşaq yaşlarından idmana və hərbi xidmətə böyük marağı olduğundan, 1995-1998-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsilini davam etdirib. Təhsil aldığı illərdə məşğul olduğu idmanın güləş növü üzrə dəfələrlə yüksək nəticələr göstərib, diplom və medallarla təltif olunub. 1998-2002-ci illərdə Azərbaycan Ali Hərbi Məktəbində (hazırda Heydər Əliyev adına Hərbi İnstitut) "Qoşunların döyüş fəaliyyətinin idarə edilməsi, motoatıcı, tank, hava-desant, desant-hücum qoşunlarının və dəniz piyadalarının döyüş tətbiqi, Daxili Qoşunların taktiki komandanlığı" ixtisası üzrə ali hərbi təhsil alıb. Təhsilini başa vurduqdan sonra bir müddət Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının sərəncamında olan Rəşad 2003-cü ilin iyun ayından



2021-ci ilin iyul ayınadək 16075, 25033, 16073, 17074, 17071 saylı hərbi hissələrdə taqım komandiri, bölük komandirinin tərbiyə işləri üzrə müavini, bölük komandiri, qərargah rəisinin döyüş təlimi üzrə müavini, tabor komandirinin müavini-qərargah rəisi və tabor komandiri vəzifələrində xidmət edib, "polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib. 2021-ci ilin iyul ayından şəhid olduğu günədək isə 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri vəzifəsində ona göstərilən etimadı layiqincə doğruldub.

Qeyd edək ki, Rəşad hələ antiterror tədbirlərində iştirakından öncə koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması, mühüm əhəmiyyətli kütləvi tədbirlərdə, eləcə də işğaldan azad olunmuş ərazilərdə ictimai qaydanın və təhlükəsizliyin qorunması üzrə tapşırıqları yüksək səviyyədə yerinə yetirib.

Məhz buna görə də polkovnik-leytenant R.Hüseynov bilik və bacarığı, yüksək döyüş hazırlığı, nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu kimi 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", 1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalları ilə təltif edilib, həmçinin Daxili Qoşunların və xidmət etdiyi hərbi hissələrin komandanlıqları tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirən zabit və hər bir qeyrətli vətəndaş kimi Rəşadın da ən böyük arzusu təbii ki, respublikamızın suverenliyi və ərazi bütövlüyünün tam bərpa olunması idi. O, bu amal uğrunda canından keçməyə hər zaman hazır idi və keçdi də...

2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda keçirilən lokal xarakterli antiterror tədbirlərində iştirak etmək tapşırığı verilən bölmələrdən biri də Rəşadın komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsi idi. Döyüş tapşırığına uyğun olaraq, sentyabrın 19-dan 20-nə keçən gecə polkovnik-leytenant R.Hüseynovun rəhbərliyi altında dəstənin bir qrup şəxsi heyəti Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndi istiqamətinə (hazırda bu kənd Ağdərə rayonunun inzibati ərazi vahidinə daxildir) doğru hərəkətə başlayıb. Komandirləri ilə birgə antiterror tədbirlərində iştirak etmiş və yaralanmış dəstənin müddətdən artıq xidmət edən hərbi qulluqçuları: baş çavuş Saleh İsmayılov, çavuş Babahəsən Kərimov, kiçik çavuş Bakir Paşayev, əsgərlər Samir Mirzəyev və Həmzəli Əliyevin bildirdiklərinə görə, yolda erməni terror qruplarının ilk hücumu uğurla dəf edilib. Hərəkəti davam etdirən şəxsi heyət Vəngli kəndinə bir neçə kilometr məsafə qaldıqda qəflətən düşmənin pusqusuna düşüb. Baş vermiş şiddətli döyüşdə cəsur komandir əsla özünü itirməyib, cəld bir şəkildə müdafiəni təşkil edərək, tabeliyində vuruşan hərbi qulluqçularla birgə düşmənə sarsıdıcı zərbələr endirib. Döyüş zamanı o, işğalçıların atdıqları qumbaranın yaxınlığında partlaması nəticəsində ağır yaralanıb. Döyüşçülərimizin şücaəti qarşısında tab gətirməyərək itki verən ermənilər geri çəkilmək məcburiyyətində qalıblar.

Müdafiə Nazirliyinin Kəlbəcər rayonu ərazisində yerləşən hərbi qospitalına təxliyə olunmasına və həkimlərin səylərinə baxmayaraq, yaralanmanın ağır fəsadları səbəbindən polkovnik-leytenant R.Hüseynov 2023-cü il sentyabrın 21-də əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlib.

Bu döyüşdə qəhrəman komandirlə birgə onun tabeliyində xidmət edən 11 nəfər cəsur hərbi qulluqçu – gizirlər Rəcəbov Vaqif Yaqub oğlu, Əhmədov Elvin Qələndər oğlu, müddətdən artıq xidmət edən baş çavuş Hüseynov Ramin Rövşən oğlu, çavuş Əliyev Zahir Sədi oğlu, kiçik çavuş Mehdiyev Süleyman Mənsur oğlu, əsgərlər Nəbiyev Fərid Kamran oğlu, Vəlizadə Rəşad Rasim oğlu, Məmmədov Azər Sulduz oğlu, Sadıqov Samir Cəbrayıl oğlu, Səmədov Camal Vüqar oğlu və Babayev Sahil Sarıbala oğlu da son damla qanlarınadək vuruşaraq şəhid olublar.



17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin müavini-qərargah rəisi kapitan Həmid Ağayev vaxtilə birgə xidmət etdiyi cəsur zabitin fədakar xidmətini bir gün də böyük fəxr hissi ilə xatırladığını vurğuladı: "Qarabağda aparılan antiterror tədbirləri zamanı şəhid olmuş polkovnik-leytenant R.Hüseynovun və digər hərbi qulluqçularımızın fədakarlığı şəxsi heyətə örnəkdir.

O, bir komandir kimi çox ciddi və tələbkar zabit idi. Şəxsi heyətin təlimlərinə, əsasən də atəş və fiziki hazırlığına xüsusi fikir verirdi. Həmişə deyirdi ki, dəstənin hərbi qulluqçularının vətənpərvərliyinə və döyüş ruhuna heç bir şübhəm yoxdur. Bizə lazım olan ən vacib məsələ onların döyüş hazırlıqlarının yüksəldilməsidir. Mənə bu amillərə xüsusi diqqət yetirməyimi tapşırırdı.

Eyni zamanda bir insan kimi də çox gözəl xasiyyəti vardı. Tabeliyində olan şəxsi heyətin qayğısına qalırdı".

Antiterror tədbirlərində iştirak etmiş və yaralanmış dəstənin post-patrul xidməti bölməsinin sürücü-atıcısı baş çavuş Saleh İsmayılov isə komandiri ilə aralarında olmuş sonuncu söhbəti müharibənin ən ağrılı xatirəsi kimi hər zaman xatırlayacağını söylədi: "Dəstə komandiri polkovnik-leytenant R.Hüseynov haqqında danışmaq mənim üçün həm çətin, həm də qürurvericidir. O, xeyirxah və ədalətli insan idi.

Yaxşı yadımdadır, komandir yaralandığı gün mən də ağır yaralı idim. Çoxsaylı qəlpə yarası almışdım, qanaxmamı bir təhər saxlamışdılar. Günorta təxminən saat 12 radələri olardı. Polkovnik-leytenant R.Hüseynovu yaralı vəziyyətdə yaxınlığıdakı çayın yanına gətirdilər. Biz yaralılar da ora toplaşdıq. Komandir mənə "İsmayılov, qızlarıma deyərsən ki, atanız sizi çox sevir" - dedi. Mən cavab verdim ki, cənab polkovnik-leytenant, siz sağ-salamat ailənizin yanına gedəcəksiniz. Lakin sözümü yarımçıq qoyub: "sən mənim sözlərimi qızlarıma deyərsən" – dedi. Qospitaldan çıxandan sonra şəhid silahdaşlarımın ailələrini ziyarət etməyə gedəndə, mənim üçün nə qədər ağır olsa da, şəhadətə yüksəlmiş komandirimizin son xahişini yerinə yetirdim".

Polkovnik-leytenant Rəşad Hüseynov 2023-cü il sentyabrın 22-də Şirvan şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Evli idi. 2001-ci ildə Zeynəb Hüseynova ilə ailə həyatı qurmuş şəhid hərbi qulluqçumuzun Rəşidə və Xədicə adlı övladları yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamı ilə polkovnik-leytenant Hüseynov Rəşad Rəhim oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Şəhid silahdaşımızın həyat yoldaşı Zeynəb xanım Rəşadın olduqca gözəl xasiyyətli insan, eyni zamanda qayğıkeş və mehriban ailə başçısı olduğunu qeyd etdi. Bildirdi ki, Rəşad sonuncu dəfə onunla əlaqə saxlayanda da hər şeyin yaxşı olduğunu deyib, özündən və uşaqlardan muğayat olmağı tapşırıb.

"Fəxr edirəm ki, oğlum Vətən uğrunda şəhid olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin, ruhları şad olsun!" - deyən hörmətli şəhid atası Rəhim Hüseynovun qeyd etdiyi kimi, müqəddəs amal uğrunda canını qurban verən Rəşadtək igid oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi olaraq yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# QƏTİYYƏTLƏ VURUŞMUŞ VƏ ÇOXLU SAYDA YARALIYA YARDIM ETMİŞ DÖYÜŞÇÜ

44 günlük Vətən müharibəsində layaqətlə döyüş yolu keçən və qazi adını daşıyan sabiq hərbi qulluqçularımızdan biri də ehtiyatda olan çavuş Mustafayev Zeymud Vidadi oğludur.

O, 1994-cü il iyunun 27-də Qusar rayonunun Hil kəndində anadan olub. Çoxmilləti və tolerant ölkəmizdə yaşayan ləzgi xalqının nümayəndəsidir. Vidadi Mustafayev və Ravidə Mustafayevanın yeganə oğul övladıdır. Zeymudun üç bacısı var, Natella, Romella ondan yaşca böyükdürlər, Elnarə isə kiçikdir. Mehriban və zəhmətkeş ailədə böyüyüb, doğmalarına qayğısını heç vaxt əsirgəməyib.

Qeyd edim ki, Zeymud Hil kəndindəki şəhid Dair Şahbazov adına ümumi və professor Kərim Kərimov adına tam orta məktəblərdə təhsil alıb. Orta məktəbdə çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Həmin vaxtdan onda hərbçi peşəsinə rəğbət yaranıb. Bu peşəyə yiyələnməyi qarşısına məqsəd qoyub.

2012-ci ilin iyul ayında o, müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmət keçib. Qumbaraatan silahı ona təhkim edilib. Murovdağ ərazisində, çətin iqlim və relyef şəraitində torpaqlarımızın müdafiəsində qətiyyətlə dayanıb. 2014-cü ilin yanvar ayında hərbi xidmətdən tərxis olunub.

Hərbi xidmətdən sonra bir müddət mülki mühafizə sahəsində işləyib. Ancaq Zeymud ordudan qayıtdığı gündən həmişə hərbçi peşəsi haqqında düşünüb. 2016-cı ilin aprelində düşmənlə təmas xəttində baş vermiş məlum döyüşlər onda ruh yüksəkliyi yaradıb. Hərbi xidmətə qəbul olunmaq üçün müəyyən müddət hazırlaşıb.

2017-ci ilin mart ayında Zeymud Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 25033 saylı hərbi hissədə öncə xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr qrupunun atıcısı vəzifəsinə təyin edilib. Atəş və fiziki hazırlığında yüksək nəticələri nəzərə alınaraq, müvafiq imtahanları uğurla başa vuraraq xüsusi təyinatlı dəstəyə keçirilib. Dəstənin ayrı-ayrı xüsusi həmlə qruplarının atıcı-sanitarı vəzifələrində xidmətini davam etdirib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, dəfələrlə komandirləri tərəfindən mükafatlandırılıb. "Çavuş" hərbi rütbəsinədək yüksəlib. Şəxsi heyət arasında hörmət qazanıb.

Xüsusi təyinatlıların təlimlərində fəallıq göstərib, döyüş hazırlığını daim təkmilləşdirib. Atıcı-sanitarların kursunda öncül olub. Qruplararası müxtəlif yarışlarda xüsusi təyinatlı öz məharətini göstərməyi bacarıb.

Koronavirus pandemiyası ilə əlaqədar Lənkəran, Cəlilabad, Biləsuvar və Masallı rayonlarının ərazilərində karantin rejiminin təmin olunması üzrə xidmətə çıxaraq qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib. Qaçaqmalçılıqla mübarizə tədbirləri çərçivəsində keçirilən xüsusi əməliyyatda iştirak edərək peşəkarlığı ilə fərqlənib.

44 gün davam edən Vətən müharibəsi dövlətimizin zəfər salnaməsidir. Müharibə zamanı Daxili Qoşunların hərbi qulluqçuları düşmənə cəsarətlə sinə gəriblər, qələbəmiz naminə mətinliklə vuruşublar.

25033 saylı hərbi hissənin xüsusi təyinatlıları müharibənin ilk günündə 16077 saylı hərbi hissədə yerləşdirilərək bir müddət orada döyüşlərdə iştirak etmək üçün hazırlıq görüblər. Həmçinin Zeymud və silahdaşları Bərdə, Tərtər və Yevlax rayonlarında polis əməkdaşları ilə birlikdə komendant postlarında xidmət aparıblar.

Oktyabrın ortalarında ön cəbhəyə göndəriliblər. Həmin vaxt bütün istiqamətlərdə şiddətli döyüşlər gedib. Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları dayanmadan irəliləyərək



işğalçıların başını əziblər. Füzuli rayonu, habelə ətrafdakı istiqamətlərdə torpaqlarımızın azad olunması və müdafiəsi, nəzarətimizə keçən ərazilərdə axtarış aparılması, hərbi obyektlərin, qənimət götürülən silah-sursatın, texnikanın mühafizəsi, digər döyüş tapşırıqlarını icra edərkən Zeymud cəsurluq göstərib.

Oktyabr ayının sonunda Zeymud Şuşanın işğaldan azad edilməsi üzrə hücum əməliyyatına cəlb olunub. Xocavənd və Xocalı rayonlarının dağlıq-meşəlik relyefə malik ərazilərindən bir neçə gün ərzində keçiblər. Hərəkət zamanı bütün çətinliklərə dözüblər. Beləliklə, Zeymudun daxil olduğu və digər qruplar Şuşa ətrafındakı Topxana meşəsində cəmləşiblər. Oradan Şuşaya doğru irəliləyiblər. Şəhər uğrunda ağır döyüşlərdə Zeymud igid xüsusi təyinatlı olduğunu şücaət nümunələri ilə isbatlayıb. İşğalçıların Şuşanın ətrafında və şəhərin özündə canlı qüvvəsinin təlafata uğradılması, mövqelərinin ələ keçirilməsinə öz döyüşçü töhfəsini verib. Bununla yanaşı, xeyli sayda yaralı hərbi qulluqçumuza ilk tibbi yardım göstərib, onların atəş altından çıxarılması üçün heç bir təhlükədən çəkinməyib.

Noyabrın 5-dən 6-na keçən gecə Xankəndindən Şuşaya gələn yolun üzərində, qala divarlarının yaxınlığında onun və silahdaşlarının olduqları mövqe düşmən tankından atəşə tutulub. Tank mərmisinin partlayışı nəticəsində Zeymud həm başından travma alıb, həm də bədəninin müxtəlif nahiyələrini qəlpələr yaralayıb. Yaralanmasına baxmayaraq, döyüşməkdə və yaralılara yardım göstərməkdə davam edib. Bu döyüş zamanı bəzi silahdaşları, o cümlədən yarımqrup komandiri baş çavuş Vüsal Allahyarov şəhidlik zirvəsinə ucalıblar.

Noyabrın 8-də Şuşada üçrəngli bayrağımızın qaldırılması tarixi anının qürurunu yaşayıb. Noyabrın 9-da düşmənin kapitulyasiyasından sonra o və digər yaralılar döyüş zonasından təxliyyə olunublar.

Vətən müharibəsi iştirakçıları: 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun komandiri kapitan Taleh Rüstəmli, qazilər, ehtiyatda olan baş çavuş Vüsal Xasməmmədov, ehtiyatda olan çavuş İlkin Abuyev, 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunun istehkamçısı çavuş Famil Məmmədov Zeymudun silahdaşlarıdır, onunla birlikdə xidmət ediblər və döyüş yolu keçiblər. Qazinin qrup komandiri olmuş kapitan T.Rüstəmli bildirdi ki, Zeymud vətənpərvər, nizam-intizamlı, hərtərəfli hazırlığa malik xüsusi təyinatlı olub. Müharibədə ürəkli və cəsarətli döyüşçü kimi vuruşub, atıcı-sanitar olaraq öz vəzifələrinin öhdəsindən layiqincə gəlib.

Vüsal, İlkin və Famil Zeymudun etibarlı və qayğıkeş yoldaş olduğunu söylədilər, xidmətdə hərbçi bacarıqları, müharibədə döyüşkənliyi ilə fərqləndiyini vurğuladılar. Qeyd etdilər ki, həyatlarını xilas etdiyi silahdaşları Zeymud haqqında həmişə dərin minnətdarlıq hissi ilə danışırlar.

Qazi yaralandıqdan sonra müxtəlif xəstəxanalarda və Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunub, onun üzərində cərrahiyyə əməliyyatları aparılıb. Xüsusi təyinatlıya III əlillik dərəcəsi verilib.

2021-ci ilin noyabr ayında səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin 25, 29 dekabr 2020-ci il tarixli, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları, Müdafiə nazirinin 24 dekabr 2020-ci il tarixli əmri ilə çavuş Z.Mustafayev "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Şücaətə görə" medalları ilə təltif edilib.

Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib.

Zeymud müharibədən sonra Nübar xanımla ailə qurub, Ravidə və Sevgi adlı övladları var. Doğma kəndində yaşayan qazi el-obasının fəxridir. Hazırda işləmir, müalicəsini davam etdirir. Silahdaşları onunla mütəmadi olaraq əlaqə saxlayırlar. Rayonda keçirilən ictimai tədbirlərə dəvət olunur.

Vətən uğrunda qazi olan Zeymud kimi oğulların döyüş yolu gənclərə dəyərli örnəkdir.

**Yalçın Abbasov**

4_Layout 1 13.02.2024 18:23 Page 1



## HƏRBİ QOSPİTALIN TƏCRÜBƏLİ MÜLKİ HƏKİMLƏRİ ŞƏXSİ HEYƏTİN QAYĞISINA QALIRLAR



Məlum olduğu kimi, 12576 saylı hərbi hissə - hərbi qospital hazırda müxtəlif xəstəliklərin müalicəsində zəngin təcrübə toplamış tibb müəssisəsidir. Qospitalın mühüm şöbələrindən biri də cərrahiyyə şöbəsidir. Burada hərbi qulluqçuların və onların ailə üzvlərinin, veteranların, sıralarımıza yeni qəbul olunmuş əsgərlərin sağlamlığının qorunması üçün mülki həkimlərin əməyindən də istifadə olunur.

Belə savadlı mülki həkimlərdən biri Sübəddin Quliyevdir. O, 1964-cü il iyul ayının 11-də Culfa rayonunun Milax kəndində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı rayon məktəbində tamamladıqdan sonra 1986-1992-ci illərdə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsində ali təhsil alıb. 1992-2019-cu illər ərzində Müdafiə Nazirliyinin müxtəlif hərbi hissələrində hərbi həkim kimi xidmət edib. Ehtiyatda olan polkovnikdir. 2019-cu ildən Daxili Qoşunların Hərbi Qospitalının cərrahiyyə şöbəsində həkim-ordinator olaraq fəaliyyətini davam etdirir. Aparılan bütün cərrahiyyə əməliyyatlarında iştirak edən həkim şöbəyə müraciət edən xəstələrin sağlamlığına qovuşması üçün əlindən gələni əsirgəmir.



Bildirdi ki, şöbədə mürəkkəb cərrahiyyə əməliyyatları aparılır. Müraciət edən xəstələr üç gün ərzində müayinələrdən keçərək, əməliyyata hazırlanırlar. Əməliyyatdan sonra xəstələrin durumuna, qidalanmasına ciddi nəzarət edilir.

Şöbənin digər həkimi, baş ordinator, Daxili Qoşunların veteranı, ehtiyatda olan tibb xidməti mayoru Azad Azadov da təcrübəli mütəxəssisdir. Baş ordinator şöbəyə müraciət edənlərin sağlamlığının qayğısına qalır. O, 1957-ci il mart ayının 2-də Lerik rayonunda anadan olub. 1981-1987-ci illərdə Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsində ali təhsil alıb. 1994-cü ildən 2012-ci ilin yanvar ayınadək Daxili Qoşunların 12576 saylı hərbi hissəsində hərbi həkim kimi xidmət edib. 2012-2016-cı illərdə müxtəlif özəl tibb müəssisələrində cərrah kimi fəaliyyət göstərib. 2016-cı ildən isə hazırkı vəzifədədir. Profilinə uyğun olaraq fəaliyyət göstərən A.Azadov daim peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi istiqamətində çalışır və öz potensialını göstərir.

Həkim söylədi ki, şöbədə müxtəlif növ (öd kisəsi, mədə-bağırsaq, bağırsaq keçməzliyi, zob, habelə ginekoloji) əməliyyatlar uğurla aparılır. Şöbənin savadlı, bacarıqlı həm mülki, həm də hərbi həkimləri şəxsi heyətin, onların ailə üzvlərinin qısa zaman ərzində sağlamlıqlarına qovuşmaları üçün səylə çalışırlar. Şöbənin müasir tibbi avadanlıqla təchiz olunması da həkimlərin daha həvəslə işləmələrinə təsir göstərir.

Şəxsi heyətin sağlamlığının keşiyində dayanan həkimlərimizə cəfakeş fəaliyyətlərində yeni uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

## ŞƏXSİ HEYƏTİN KEYFİYYƏTLİ QİDALANMASI TƏMİN OLUNUR

Hərbi qulluqçuların sağlamlığının qorunması və möhkəmləndirilməsi əsas diqqət yetirilən məsələlərdəndir. Şəxsi heyətin yüksək kalorili, keyfiyyətli yeməklərlə qidalanması daim komandanlığın nəzarətindədir.

67987 saylı hərbi hissənin yeməkxana rəisi baş çavuş Əbülfəz Cəlilov qeyd etdi ki, şəxsi heyətin qidalanması müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil olunur. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün lazımi bütün tədbirlər görülür. Şəxsi heyətin qidalanması gündəlik olaraq üç dəfə həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Həmçinin yeməkxanada səliqə-sahmanın saxlanılması təmin olunur. Qidalanmadan sonra bütün qablar iki faizli məhlulla yuyulur. Eləcə də qida şəxsi heyətə təqdim olunandan əvvəl onun keyfiyyəti həkim tərəfindən yoxlanılır.



Şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə məlumat verən yeməkxana rəisi bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə sentyabr ayından başlayaraq şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını da nəzərə çatdırdı.

Baş çavuş Ə.Cəlilov görülən işlərdə aşpaz-təlimatçı baş çavuş Sarvan Sadıqov, aşpaz-manqa komandiri çavuş Emil Alməddətovun əməyini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməklərini əsirgəmədiklərini söylədi. Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı aşpazlardan əsgərlər Bayram Quliyevin, Məhəmməd Hüseynlinin adlarını çəkdi, mülki işçi - aşpazlardan Günay İbrahimxəlilova, Sevinc Abdullayeva, Elmira Yolçuyeva və Amina Nəcəfovanın fəaliyyətlərini də müsbət xarakterizə etdi.

**kapitan Xədicə Hacızadə**

## CAMAŞIRXANA FƏALİYYƏTİNİ UĞURLA TƏŞKİL EDİR

12318 saylı hərbi hissənin camaşırxanası bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Qeyd etmək lazımdır ki, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində işçilərin də əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlaklarının yuyulması məhz onlar tərəfindən həyata keçirilir. Hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Xəyal Manafov tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. O bildirdi ki, camaşırxana işçiləri Tərlan Məmmədova və Nəzirə Hüseynova öz işlərini məsuliyyətlə görür, hər bir əsgərə ana qayğısıyla yanaşırlar.





Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurudulduqdan sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

İşçilər üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirirlər.

**kapitan Şahin Cəfərzadə**

### NÜMUNƏVİ XİDMƏT

## VƏTƏNPƏRVƏR, MƏĞRUR HƏRBİ QULLUQÇU

99713 saylı hərbi hissənin hərbi qulluqçusu olan çavuş İskəndər İsayev nümunəvi xidmətilə fərqlənir. Əslən Şuşadan olan hərbi qulluqçumuz 1996-cı il oktyabrın 10-da Ağsu rayonunda anadan olub. Orta təhsilini 2002-2013-cü illərdə Mingəçevir şəhərində yerləşən 48 saylı tam orta məktəbdə alıb. 2014-cü ildə Milli Qvardiyanın mühafizə bölüyündə müddətli həqiqi hərbi xidmətə qəbul olunub. 2016-cı ildə xidmətini başa vuran gənc həyatını hərbi peşəyə həsr etmək qərarına gəlir. Bu arzusunu reallaşdırmaq üçün 2017-ci ildə Daxili Qoşunların komandanlığına müraciət edib və 16077 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Elə həmin vaxtdan bu günə kimi Daxili Qoşunların sıralarındadır. Özünün dediyinə görə, hələ uşaq ikən hərbçi olmaq həvəsilə yaşayıb. Orta məktəbi bitirdikdən sonra isə artıq öz yolunu seçən İskəndər taleyini hərbi xidmətə bağlamağı qərarlaşdırıb. Buna görə də Daxili Qoşunlara gəlişi heç də təsadüfi olmayıb. Hazırda 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi əməliyyat qrupunun atıcı-qumbaraatanı vəzifəsindədir.



Vətənpərvərlik əqidəsi hər şeydən üstün olan çavuş İ.İsayev bu gün hərbi xidmətdə əzmkarlıq, dözümlülük göstərərək, funksional vəzifələrini layiqincə yerinə yetirir.

Çavuş İ.İsayev şəxsi məsuliyyət hissinin onun üçün önəmli olduğunu vurğulayaraq, Daxili Qoşunların sıralarında xidmət etməkdən hər zaman qürur duyduğunu nəzərimizə çatdırdı.

Ötən illər ərzində hərbi qulluqçu kimi qazandığı bilik və bacarıqlarını döyüş meydanında nümayiş etdirən İskəndər Vətən müharibəsi iştirakçısıdır. O, 2020-ci il oktyabrın 27-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində döyüş zamanı qəlpə yarası alıb.

Azərbaycan Respublikası Prezidentinin 24, 29 dekabr 2020-ci il tarixli, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamları və Daxili işlər nazirinin 9 mart 2023-cü il tarixli əmri ilə çavuş İ.İsayev "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Şücaətə görə" medalları ilə təltif olunub.

Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli müvafiq əmri ilə ona zoğalı beret daşıma hüququ verilib.

**kapitan Nigar Ağayeva**

## MƏSULİYYƏTLİ RADİOTELEFONÇU

25032 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri təminat bölüyünün rabitə taqımının radiotelefonçusu əsgər Fariz Yusiflidir. O, 2004-cü ilin avqust ayının 31-də Gəncə şəhərində anadan olub. 2021-ci ildə Samux rayonunun Ziyadlı kəndindəki İmadəddin Nəsimi adına tam orta məktəbi bitirib. 2022-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25031 saylı hərbi hissəsinə qəbul olunub. Sonra 25032 saylı hərbi hissədə təşkil edilmiş rabitəçi kursunu müvəffəqiyyətlə bitirib.



Əsgər F.Yusifli xidməti-vəzifə borclarına dəqiqliklə və məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. Bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir. Bundan əlavə, ixtisas hazırlığı üzrə məşğələlərə cəlb olunan əsgər F.Yusifli öz fəallığı ilə seçilir.

Daxili Qoşunlarda xidmətilə fəxr edən hərbi qulluqçumuz xidmətini başa vurduqdan sonra rabitə və informasiya texnologiyaları sahəsi üzrə ali təhsil almağı, bu ixtisas üzrə özünü inkişaf etdirməyi, bilik və bacarıqlarını artırmağı qarşısına məqsəd qoyub. Biz də hərbi qulluqçumuza xidmətində və gələcək həyatında uğurlar arzulayırıq.

**kapitan Xədicə Hacızadə**

### *Həkim məsləhəti*

## XƏRÇƏNG HÜCEYRƏLƏRİNİN İNKİŞAFINI DAYANDIRMAĞA QADİR OLAN ƏRZAQLAR

Elə ərzaqlar var ki, onlar immunitetə müsbət təsir göstərir və xərçəng xəstəliyinə tutulmamağa kömək edir.

AZƏRTAC tibb saytlarına istinadla xərçəng hüceyrələrinin fəallığının qarşısını almaq qabiliyyətində olan ərzaqlar barədə məlumat verir.

**Tərkibində Omeqa-3 yağ turşuları olan ərzaqlar.** Orqanizm Omeqa-3 hasil etmir, bu yağ turşularını yalnız qida vasitəsilə ala bilir. Tərkibində Omeqa-3 ilə zəngin olan məhsullardan biri yağlı dəniz balığıdır. Omeqa-3 yağ turşuları bədxassəli hüceyrələrin əmələ gəlməsinə maneə törədir.



**Kələm.** Xərçəng hüceyrələrinin inkişafını dayandırmaq qabiliyyətinə malik ərzaqlardan biri də kələmdir. Bu tərəvəzin hər bir növü orqanizmdə patoloji hüceyrələrin yayılmasına qarşı mübarizə aparmağa qadirdir.

**Sarımsaq.** Bu məhsul şişlərin əmələ gəlməsinə təsir edən təhlükəli toksinlərin orqanizmdən çıxmasını stimullaşdıran unikal xassəyə malikdir.

Həkimlərin sözlərinə görə, bitki mənşəli ərzaqlar ümumi gündəlik rasionun 70 faizini təşkil etməlidir.

## HƏRBİ XƏBƏRLƏR

### ·YENİLİKLƏR·

### ABŞ Konqresi Türkiyəyə "F-16"ların satışı ilə bağlı müqaviləni təsdiqləyib

ABŞ Konqresi Türkiyəyə 40 yeni "F-16" qırıcısının satışı və mövcud "F-16" qırıcılarının modernləşdirilməsi ilə bağlı müqaviləni təsdiqləyib. Ordu.az xəbər verir ki, bu barədə Amerikanın Ankaradakı səfirliyi özünün "X" səhifəsində məlumat yayıb.

Amerikanın Türkiyədəki səfiri Cefri Fleykin bəyanatında deyilir: "Konqresin bu həftə Türkiyənin 40 yeni və 79 təkmilləşdirilmiş "F-16" təyyarəsi almasına razılıq verməsi irəliyə doğru atılmış böyük addımdır. Türkiyənin "F-16" donanması müttəfiqlər arasında gələcək qarşılıqlı fəaliyyətin təmin edilməsində NATO qüvvələri üçün çox vacibdir".



## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Nəzir Abdullayevə anasının vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Vaqif Umudəliyevə anasının vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000